# <u>Mühazirə - 22</u> <u>*Ə.Mirzəzadə*</u>

## <u>*Mövzu:*</u> Azərbaycan Respublikası İlham Əliyevin Prezidentliyi dövründə

***Plan:***

*1. İlham Əliyevin Azərbaycan Respublikasının Prezidenti seçilməsi.*
*2. Azərbaycanda güclü sosial siyasətin aparılması. Regionların sosial – iqtisadi inkişafına dair dövlət proqramı.*
*3. Beynəlxalq əhəmiyyətli neft, qaz və nəqliyyat layihələrinin həyata keçirilməsi.*
*4. Müasir mərhələdə Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri*
*5. 2003 – 2014 – cü illərdə mədəniyyət sahəsində həyata keçirilən yeni layihələ*

***ƏDƏBİYYAT:***


*1. Azərbaycan vahid və bölünməz Avropada: 2001 – 2011. Bakı, 2011.*
*2. Mehdiyev R. Azərbaycan 2003 – 2008: zaman haqqında düşünərkən. Bakı, 2009*
*3. Mehdiyev R.Yeni siyasət: inkişafa doğru .c. 1, 2. Bakı,2008.*
*4. Əliyev İ. Azərbaycanda demokratiyanın inkişaf yolu dönməzdir. Bakı,2003.*
*5. Əliyev H. Yeni neft strategiyası.Bakı, 2002.*
*6. Əliyev. İ. Ümumu Vətənimiz Azərbaycanı möhkəmləndirək və qüdrətli dövlətə çevirək. Dünya azərbaycanlılarının II qurultayında nitqi. "Respublika" qəz., Bakı, 2006, 17 mart.*
*7. President İlham Əliyev və mədəniyyət. c. 1, 2. Bakı,2008.*
*8. Həsənov Ə. Müasir beynəlxaq münasibətlər və Azərbaycanın xarici siyasəti.Bakı, 2005.*


Azərbaycan xalqı qarşısındakı xidmətləri nəzərə alınaraq İlham Əliyev 2003 – cü idə Azərbaycan Respublikasının Baş naziri təyin olunmuşdur. O, 2003 – cü ilin prezident seçkilərində parlaq qələbə qazanaraq xalqın iradəsi ilə Azərbaycan Respublikasının prezidenti seçilir.

2003- cü il dekabrın 12-də ümummilli lider Heydər Əliyev vəfat etdi.

Azərbaycanın siyasi tarixində, dövlət müstəqilliyinin qorunub saxlanmasında, dünya iqtisadiyyatı ilə sıx inteqrasiya prosesində Heydər Əliyevin misilsiz xidmətləri olmuşdur.

Hazırkı şəraitdə Azərbaycan Respublikasının prezidenti İlham Əliyev Heydər Əliyevin siyasi xəttini və ideyalarını uğurla davam etdirir.

2005 – ci ilin aprelində Milli Məclis "Heydər Əliyev" ordeninin təsis edilməsi haqqında qanun qəbul edir. "Heydər Əliyev" ordeni iləilk dəfə P rezident İlham Əliyev və türk dünyasının görkəmli xadimi İhsan Doğramacı təltif olundu.

Ulu Öndər Heydər Əliyev məktəbinin layiqli davamçısı, Onun strateji siyasətini və ideyalarını müvəffəqiyyətlə həyata keçirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin elmə əsaslanan iqtisadi siyasəti respublikanın sosial-iqtisadi inkişafı prosesində dinamizmi və məqsədyönlülüyü təmin etmiş, qarşıda duran vəzifələrin həllinə real imkanlar açmış, cəmiyyətin ümumi potensialının milli məqsədlər naminə səfərbər olunmasına etibarlı zəmin formalaşdırmışdır.

2003- cü ildən başlayaraq president İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda yeni iqtisadi siyasət həyata keçirilir təsadüfü deyil ki prezidentlik fəaliyyətində verdiyi ilk fərmanlarda məhz social – iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri və regionların social iqtisadi inkişafı haqqında olmuşdur.

Prezidentin bölgələrə müntəzəm səfərləri yerlərdə social – iqtqsadi vəziyyətlə hərtərəfli tanış olması əhali ilə görüşləri, regionların inkişafı, yoxsulluğun azaldılması ilə bağlı müəyyən edilmiş strateji proqramlar üzrə tapşırıqların yerinə yetirilməsi barədə konkret qərarlar verməsi artıq ənənəyə

çevrilmişdir. Prezident İlham Əliyev xüsusi olaraq qeyd etmişdir ki, ölkədə social məsələlərin həlli istiqamətində mühüm addımlar atılır.

Azərbaycan prezidentinin apardığı uğurlu siyasət nəticəsində cari ilin yanvar sentyabr ayları ərzində ölkənin əsas mikroiqtisadi göstəriciləri müvafiq olaraq ümumi daxili məhsul 2006-cı ilin müvafiq dövrüb ilə müqayisədə 27,1 faiz artmışdır. Əhalinin rifah halının, onun maddi təminatının yaxşılaşdırılması sahəsində aparılan social- iqtisadi siyasətin nəticəsində 2007 – ci ilin yanvar – sentyabr ayları ərzində 2006 – cı ilin müvafiq dövrü ilə müqayisədə orta aylıq əmək haqqı 28,2 faiz artmışdır.

Onun rəhbərliyi ilə ölkədə iqtisadi islahatlar dahada sürətlənmiş, xüsusi prezident fərmanı ilə 2004 – 2008 ci illərdə regionların social – iqtisadi inkişafına dair Dövlət proqramı qəbul olunmuşdur və 2008- ci ildə uğurla yerinə yetirilir.

2004 – cü ilin iyul ayında Azərbaycan Prezidenti İlham Əliyevin "Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət proqramının təsdiq nedilməsinə dair" sərəncamə bu kateqoriyadan olan insanların həyatında mühüm hadisə oldu.

2005- ci ilin fevral ayında "Azəri - Çıraq – Günəşli" yataqlarının Mərkəzi Azəri hissəsindən ilkin neftin hasilatına başlanır.

2005 –ci ilin may ayında Heydər Əliyev adına Bakı – Tibilisi – Ceyhan əsas ixrac neft kəmərinin Azərbaycan, oktyabr ayında isə Gürcüstan hissəsinin istismara verilməsi mərasimikeçirildi. Azərbaycan, Türkiyə və Gürcüstanınprezidentləri bu mərasimdə iştirak etdilər.

2006 – cı il iyulun 13-də həmin neft kəmərinin Türkiyə hissəsinin də istifadəyə verilməsi Bakı – Tibilisi – Ceyhan əsas ixrac boru kəmərinin tikintisi başa çatdırıldı. Belıliklə Azərbaycanın qara qızılının dünya bazarına ən qısa vəstrateji yolla çıxarılması təmin olundu.

Azərbaycan Prezidenti İlham Əliyev 2006 – cı ilin fevral ayında "Bakı şəhərinin qəsəbələrinin social – iqtisadi inkişafının sürətləndirilməsinə dair tədbirlər proqramı haqqında" sərəncam verdi.

2006-cı ilin martında dünyada ən nəhəng qurğulardan biri, tikinti baxımından çox mürəkkəb və çətin konstruksiyaya malik "Şahdəniz" qaz ixracı layihəsi TPG – özü qalxan platformanın inşası başa çatmışdır. Bu qurğu respublikada neft və qaz çıxarilması üzrə böyük layihələrin həyata keçirilməsinin əsas göstəricisi sayıla lilər.

2006 – cı ilin martında İmişli şəkər zavodunun fəaliyyətə başlaması əhalinin məşğulluğunun təmi edilməsi istiqamətində mühüm addım oldu.

Regionların sosial – iqtisadi dövlət proqramının həyata keçirilməsinə xüsusi diqqət yetirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2006 – cı il martın 24 – də "Ağdam, Bərdə, Tərtər rayonlarının social – iqtisadi inkişafının serətləndirilməsinə dair tədbirlər planı"nı təsdiq etdi.

2003 – cü il iyulun 7- də Avropa Komissiyasının maliyyə köməyi ilə Bakı metropoliteninin "Həzi Aslanov " stansiyası , 2008 –ci ilin sentyabrında isə "Nəsimi" stansiyasının tikintisi başa çatdırılmişdır.

2010- cu ildekabrın 28 – dövrün nəhəng layihələrindən biri olan Oğuz – Qəbələ - Bakı su kəməri istifadəyə verilmişdir.

2011 – ci il dekabrın 30 – da Bakı metropoliteninin "Koroğlu" stansiyasının əsaslı təmirdən sonra açılışı olmuşdur.

2012 – ci ildekabrın 10- da Azərbaycan Respublukası hökuməti ilə Rusiya Federasiyası hökuməti arasında Qəbələ RLS (Qəbələ Radiolokosiya stansiyasının) status, istifadə prinsipləri və şərtləri haqqında imzalanmış sazişə əsasən Rusiya Federasiyası Qəbələ RLS – in istismarını dayandırmışdır.

2003-2014-cü illər ərzində Azərbaycanda dinamik sosial-iqtisadi inkişaf, demokratik və müasir dövlət quruculuğu sahəsində mühüm addımlar atılmışdır. Son 11 ildə iqtisadiyyatımız 3,4 dəfə artmış, əsasən şaxələndirilmiş, müasir sosial-iqtisadi infrastruktur yaradılmış və qeyri-neft sektorunun dinamik inkişafı təmin edilmişdir. Qeyri-neft sektorunda artımlar isə, əslində biznes mühitinin əlverişli olduğunu göstərir. Son illərdə ölkənin əsas iqtisadi hədəfi idxalı azaltmaq, yerli istehsalı gücləndirmək, yeni iş yerləri yaratmaqdır. Bu məqsədlərə nail olmaq üçün dövlət səviyyəsində kompleks tədbirlər planı icra edilmişdir. Dövlət İnvestisiya Proqramında nəzərdə tutulmuş infrastruktur layihələri özlüyündə özəl sektorun inkişafına və rəqabət qabiliyyətli

məhsulların istehsalına kömək göstərir. Əgər dövlət xərcləri olmasaydı, bölgələrdə müasir infrastruktur layihələri icra edilməsəydi, əlbəttə ki, heç bir biznes mühitindən söhbət belə gedə bilməzdi. Hər il qeyri-neft sektorunda olan artım onu göstərir ki, ölkəmizin bundan sonrakı uğurlu inkişafı da təmin ediləcəkdir.

Belə ki, iqtisadiyyatda artım 3,4 dəfə, sənaye istehsalında 2,7 dəfə, kənd təsərrüfatında 1,5 dəfə təşkil edir. Son on ildə regional inkişaf proqramlarının uğurlu icrası nəticəsində bir milyonu daimi olmaqla bir milyon 300 mindən çox yeni iş yeri açılıb. İşsizlik 5 faiz səviyyəsindədir. Yoxsulluğun səviyyəsi 49 faizdən 5,3 faizə enib. Ölkəmizdə aparılan islahatlar və düşünülmüş iqtisadi siyasət dünyanın ən mötəbər iqtisadi qurumları tərəfindən də yüksək qiymətləndirilir. Məlum olduğu kimi, Davos Dünya İqtisadi Forumu Azərbaycan iqtiasadiyyatını rəqabət qabiliyyətliliyinə görə 38-ci yerə layiq görüb. Azərbaycan dünyanın ən rəqabət qabiliyyətli 40 ölkəsinin sırasındadır. Ölkə Prezidenti İlham Əliyev bildirir: "Bu proses davam edir və bu da təbiidir. Çünki bizim iqtisadi siyasətlə bağlı təşəbbüslərimiz, o cümlədən Azərbaycanda aparılan sənayeləşmə siyasəti, əlbəttə ki, yeni iş yerlərinin açılmasına gətirib çıxarır".

Bir fakt da hamıya məlumdur ki, ölkənin hərtərəfli inkişafını daha da sürətləndirmək üçün hər il konkret bir sahənin adı ilə bağlanır. Bu il Cənab İlham Əliyevin 10 yanvar 2014-cü il tarixli Sərəncamı ilə "Sənaye ili" elan olundu. Tədbirlər planına uyğun olaraq yeni sənaye müəssisələrinin yaradılması işsizliyin aradan qaldırılmasına öz müsbət təsirini göstərir. Bu gün ölkəmizdə böyük inkişafı, tərəqqini görmək üçün dövlət büdcəmizə də nəzər salmaq mütləqdir. Son on ildə dövlət büdcəmizin 20 dəfədən çox artması uğurlu sosial-iqtisadi islahatların nəticəsidir. 2014-cü ilin dövlət büdcəsinin gəlirlərinin 19 milyard, xərclərinin isə 21 milyard manatdan artıq nəzərdə tutulması iqtisadiyyatın inkişafının göstəricilərindəndir. Müqayisə üçün qeyd edək ki, 2003-cü ildə dövlət büdcəmiz 1,2 milyard dollar idi. Hazırda ölkəmizin valyuta ehtiyatlarının həcmi 53 milyard dollardır. Göründüyü kimi, köklü iqtisadi islahatlar, infrastruktur layihələri və sosial proqramlar üzrə uğurlu fəaliyyət çox mühüm nəticələrə gətirib çıxarır, iqtisadiyyatımız daha da çiçəklənir.

Bu baxımdan reallıqdır ki, Azərbaycanın sosial-iqtisadi inkişafı sahəsindəki uğurları beynəlxalq aləm tərəfindən təqdir olunduqca ölkəmizin dünya arenasındakı siyasi nüfuzu daha sürətlə artır. Dünyanın aparıcı beynəlxalq təşkilatları, qurumları və tanınmış siyasətçilər, iqtisadçılar Azərbaycanın reallaşdırdığı hərtərəfli islahatları inkişaf etməkdə olan ölkələr üçün nümunə kimi göstərirlər. Beynəlxalq reytinq mərkəzləri və nüfuzlu kütləvi informasiya vasitələri ölkəmizin müxtəlif sahələrdəki uğurlarını yüksək qiymətləndirirlər.

Bir sözlə, Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu inkişaf strategiyasını bu gün uğurla davam etdirərək Prezident İlham Əliyev ölkəmizdə keçid iqtisadiyyatının uğurla başa çatdırılmasına nail olmuşdur. Dövlətimizin başçısının reallaşdırdığı uzaqgörən və müdrik siyasət Azərbaycanın iqtisadi tərəqqisinə, dünyada köklü mövqeyinin möhkəmlənməsinə, inkişaf etmiş güclü dövlətlər sırasında yer almasına xidmət edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında son onillikdə əldə olunmuş nailiyyətlər bir daha təsdiq edir ki, Azərbaycan yeni çağırışları qarşılamağa hazırdır və bunun üçün adekvat inkişaf strategiyasına malikdir.

2003-cü ildən etibarən Prezident İlham Əliyev müstəqil Azərbaycanın müasir dövlətçiliyinin simasını yeniləşdirən tarixi şəxs kimi qəbul edilir. Ulu Öndərin siyasi-tarixi irsinə, xalqımızın iradəsinə söykənən İlham Əliyev ötən illərdə peşəkar dövlət xadimi, görkəmli siyasətçi, nüfuzlu lider kimi ölkədə və xaricdə özünü təsdiq etmişdir. Bu gün lider nə inzibati, nə də sırf siyasi kateqoriyadır. Qloballaşma dövründə, bu, ilk növbədə, həmişəkindən daha çox mənəvi, milli, ideal simvoldur. Liderin malik olduğu ən böyük kapital isə xalqın etimadıdır, davamlı uğurlar və sıx milli birlikdir. Bu nöqteyi-nəzərdən biz görürük ki, bu gün Prezident İlham Əliyev dövlətçiliyin möhkəm özüllər üzərində inkişafını təmin edir, öz xalqının firavan və təhlükəsiz yaşayışı üçün zəruri şərtləri yaradır. O, öz nüfuzu sayəsində beynəlxalq arenada liderlik məsuliyyətini üzərinə götürüb hadisələrin müsbət məcraya yönəlməsini təmin etmək bacarığını nümayiş etdirir.

Azərbaycan dövlətçiliyi tarixində milli, mənəvi və mədəni ənənələrin varisliyi mövcud olmuşdur. Bundan fərqli olaraq, milli quruculuq, siyasi dövlətçilik və iqtisadi uğurların varisliyi yalnız son illərin hadisəsi və tarixi nailiyyətlərimizdir. Nə qədər çətin olsa da, dövlətin əbədiyaşarlığı üçün onun əsas zəmanəti - liderlik ənənəsinin və siyasi hakimiyyətin təkamül yolu ilə əvəzlənməsinin

təmin olunmasıdır. Yeni liderlik böhran dövrlərində özünü daha qabarıq göstərir. Nail olduğumuz qələbələrin, Azərbaycanın beynəlxalq uğurlarının, "regionda və dünyada dinamik inkişaf edən ölkə" imicinin nə qədər çətin məqamda əldə olunması yeni zamanın lideri obrazını gözümüz önündə canlandırır. Ətrafdakı ölkələrin fasiləsiz gərginlik ocağına, bölgədə sabitlik üçün təhlükə mənbəyinə çevrildiyi çətin şəraitdə Azərbaycan inkişaf, əməkdaşlıq və qlobal təhlükəsizliyin yeni modelini dünyaya təqdim edir.

Məhz 2003-2014-cü illərdə sosial-iqtisadi islahatların həyata keçirilməsi nəticəsində əldə edilən yüksək və davamlı sosial-iqtisadi göstəricilərin arxasında Prezident İlham Əliyevin siyasi iradəsi, zəhməti və fədakarlığı dayanır. Beləliklə, son 11 il tariximizin ən yeni mərhələsində İlham Əliyev dövrünün parlaq başlanğıcı və uğurlu illəri kimi yadda qalacaq. Bu dövr, nə "qərbləşmə", nə də Şərq və Asiya modelinin təqlidi olmayan, yalnız Azərbaycana xas olan milli inkişaf modelinin formalaşdığı illər olmuşdur.

Hazırda isə Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyur. Bu mərhələnin əsas hədəfi çoxşaxəli, səmərəli və innovasiya yönümlü iqtisadiyyatın formalaşdırılması, əhalinin rifahının layiqli, qabaqcıl beynəlxalq standartlara uyğun səviyyəyə çatdırılması, təhsilin, elmin, mədəniyyətin inkişafında, ictimai həyatın bütün sahələrində yeni nailiyyətlərin əldə olunmasıdır. Müasir tariximizin 2003-2014-cü illərinin yüksəliş və inkişaf göstəricilərinin davamlılığını təmin etmək bundan sonra da dövlətimizin qarşısında duran ən böyük vəzifədir.

Beləliklə, Prezident İlham Əliyevin zəkası, istedadı və uzaqgörənliyi Azərbaycan xalqına işıqlı yol açmış, Onun sayəsində bu gün ölkəmiz regionun lideri statusunu qazanmış və dünya dövlətləri birliyində layiqli yer tutmuşdur. İlham Əliyevi fərqləndirən keyfiyyət ondan ibarətdir ki, Onun humanistliyi, mədəniyyəti və təvazökarlığı ətrafında olanlar üçün örnəkdir.

Prezident İlham Əliyevin simasında biz Azərbaycan dövlətçiliyi tarixində yeni fenomeni müşahidə edirik. Onun bütün fəaliyyətinin qayəsində xalqı və dövləti yüksəlişə, inkişafa aparmaq dayanır.

Bu gün əminliklə demək olar ki, Azərbaycan xalqı üçün İlham Əliyevin prezidentlik dövrü böyük sərvətdir. Çünki İlham Əliyev Ulu Öndərin siyasi kursuna söykənərək ölkədə sabitliyi, uğurlu inkişafı və Azərbaycanın regionda lider dövlət kimi bərqərar olmasını təmin etmişdir.

2005 – ci ilin aprelində Milli Məclis “Heydər Əliyev” ordeninin təsis edilməsi haqqında qanun qəbul etdi. “Heydər Əliyev “ ordeni ilə ilk dəfə Prezident İlham Əliyev və türk dünyasının görkəmli xadimiİhsan Doğramacı təltif olundu. 2005 – ci il mayın 10 – da Heydər Əliyev adına Respublika Sarayının qarşısındakı xiyabanın və Heydər Əliyevin əzəmətli heykəlinin açılışı oldu.

2005 – ci ilin noyabr ayında Azərbaycan Respublikası Milli Məclisinə seçkilər keçirilir.

Dünya Azərbaycanlılarının 2001 – ci, 2006 və 2011 – ci illərdə keçirilmiş birinci, ikinci və üçüncü qurultayları dünyada yaşayan soydaşlarımızın birliyinin möhkəmləndirilməsində böyük rol oynayır.

2008 – ci il oktyabrın 15- də İlham Əliyev ikinci dəfə Azərbaycan Respublikasının Prezidenti seçilir.

2009 – cu il martın 18 – də Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər və əlavələr edilməsinə dair referendumkeçirildi. Qəbul edilən 29 əlavə və dəyişikliklərin əksəriyyəti vətəndaşların hüquq və səlahiyyətlərinin genişləndirilməsinə və hökumətin sosial məsuliyyətinin artırilmasına xidmət edir.

2013 – cü il oktyabrn 9 – da İlham Əliyev üçüncü dəfə Azərbaycan Respublikasının Prezidenti seçilir.

4. Azərbaycan dövlətinin xarici siyasətdə rəhbər tutduğu əsas vəzifələri aşağıdakı istiqamətlərdə qruplaşdırmaq olar:

-ölkənin müstəqilliyini, suverenliyini vəbeynəlxqaaləmdə tanınmış sərhədləri çərçivəsində ərzai bütövlüyünü qorumaq onun təhlükəsizliyini regional və beynəlxaqtəhlükəsizlik sistemi ilə sıx əlaqələndirmək;

-Azərbaycanın bütün beynəlxaq və regional təşkilatlarda təmsil olunması, sivil birgəyaşayış qaydaları ilə tənzimlənən böyük dünyaaa siyasətinə qatilması, beynəlxaq və regional münasibətlərin həllihdə fəal iştirak etməsi zəminində dünyanın siyasi xəritəsində layiqli yer tutmasına nail olmaq;

Dünyanın bütün dövlətləri ilə bərabərhüquqlu, qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri yaratmaq, bu əlaqələrdən respublikanın iqtisadiyyatının elminin və mədəniyyətinin inkişafında səmərəli amil kimi istifadə etmək.

Xalqın mənafeyinə tabe edilmiş xarici iqtisadi siyasət yeritmək, ölkə iqtisadiyyatının dünya iqtisadi sisteminə inteqrasiyası üçün bütün xarici və daxili amillərdən bəhrələnmək və s.

Müstəqil Azərbaycan Respublikasının xarici siyasət strategiyasının prioritet istiqamətləri arasında ABŞ-la ikitərəfli münasibətlərin qurulması mühüm yer tutur.

1991 – ci il oktyabrın 18 – də Azərbaycanda müstəqillik haqqında Konstitusiya aktı qəbul ediləndən sonra onun müstəqilliyini ilk tanıyan dünya dövlətlərindən biri də ABŞ oldu. Həmin il dekabrn 25 – də Vaşinqton öz müstəqilliyini elan etmiş Azərbaycan dövlətini rəsmi tanıdığını bəyan etdi və tezliklə iki dövlət arasında diplomatik münasibətlər yaratmaq üçün müəyyən addımlar atdı. 1992 – ci il fevralın 12 – də ABŞ – in dövlət katibi Ceyms Beyker iki ölkə arasında rəsmi münasibətlər yaratmaq məqsədi ilə Bakıya səfərə gəlir. Səfərdən az sonra, 1992 – ci il martın 17 – də ABŞ Bakida özünün səfirliyini açmış, 18 – də isə iki dövlət arasında rəsmi diplomatik münasibətlər yaradılmışdır.

Azərbaycanın rastlaşdığı Dağlıq Qarabağ problemi vəerməni təcavüzü də həmin vaxt ABŞ – ınrəsmi dairələrinin diqqətindən kənarda qalmamışdır. 1992 – ci il mayın 19 – da Dövlət Departamentininrəsmi nümayəndəsi bildirmişdir ki, onun ölkəsi Dağlıq Qarabağda və NAXÇIVANDA DÖYÜŞ ƏMƏLİYYATLARININ GÜCLƏNDİRİLMƏSİNİ QƏTİYYƏTLƏ PİSLƏYİR VƏ HƏR HANSI ƏRAZİNİN STATUSUNUN ZORAKILIQ ƏSASINDA BİRTƏRƏFLİ ŞƏKİLDƏ DƏYİŞDİRİLMƏSİ ilə razılaşmayacaq.

1993 – cü ilin yanvarında Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev ABŞ prezidenti Bil Klintona məktub göndərdi. Məktubda yenicə prezidentlik fəaliyyətinə başlayan Bil Klintonu təbrik edən Heydər Əliyev ümidvar olduğunu bildirirki, o, müstəqil AzərbaycanRespublikasına xoş və xeyirxax münüsibət bəsləyəcək. Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasını aradanqaldırmaq üçün Amerika dövlətinin bütün imkanlarından istifadə edəcəkdir.

Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin məktubu Ağ evdə dərhal reaksiya doğurdu. 1993 – cü ilin yanvar ayında ABŞ və Rusiya prezidentləri Dağlıq Qarabağ problemi və Ermənistan – Azərbaycan münaqişəsi ilə bağlı birgə bəyanat verərək münaqişəni nizama salmaq üçün tezliklə Minsk konfransının çağrılmasına tərəfdar olduqlarını bəyan edirlər.

1993 – cü ilfevral ayının 4- də ABŞ – in Azərbaycandakı səfiri Riçard Mayls Naxçıvana yola düşdü. O, Ali Məclisin sədri Heydər Əliyevlə görüş zamanı ABŞ prezidenti Bil Klintonun bölgədə yaranmış vəziyyətlə bağlı narahatlığını çatdırmaqla yanaşı, Naxçıvana təcili humanitar yardım göstərilməsi haqqında Prezidentin qərarı barədə Dövlət Departamentinin humanitar yardımlar üçün proqramının rəhbəri Riçard Armitac tərəfindən göndərilən məktubu təqdim edir.

Az keçmədən Azərbaycana qarşı hərcür yardımı qadağan edən "907 – ci düzəlişə" baxmayaraq, Amerikanın humanitar yardımla yüklənmiş təyyarəsi Naxçıvana enir. Bu, Azərbaycan – ABŞ əlaqələrində gərginliyin yumşaldılmasına və aradan qaldırılmasına yönələn ilk addım kimi gələcək münasibətlərə də öz müsbət təsirinigöstərdi.

1993 – cü ilin aprel may aylarında Bakıda və Vaşinqtonda iki ölkənin səfirlikləri fəaliyyətə başlayır.

1993 – cü ildə Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlanan Azərbaycan - Amerika dialoqu və müstəqil dövlətimizin okeanın əks qütbünə yönələn siyasət xətti nəinki bu çirkin erməni siyasətinə öz məqsədlərinə tam nail olmağa imkan vermədi, əksinə, tezliklə iki ölkə arasındakı münasibətlərin yaxşılaşmasına müsbət təsirinigöstərdi.

1994 – 1996 – cı illərdə Azərbaycanın xarici siyasətində ABŞ – la münasibətlərin inkişaf etdirilməsi ölkə diplomariyası qarşısında duran əsas vəzifələridən biri səviyyəsinə qaldırıldı.

Beləliklə 1993 – cü ilin ikinci yarısından başlanan məqsədyönmü xarici siyasət artöq 1994 – cü ilin sonunda öx müsbət nəticələrini verdi və məlum oldu ki, 1988 – 1993 – cüillərdə Azərbaycan hakimiyyər dairələrinin görə bilmədiyi işlər Prezident Heydər Əliyevin rəhbərliyi altında cəmi bir ilə Həyata keçirildi. Bu hansı işlər idi:

-erməni təbliğatı onun yaratdığı mif darmadağın edildi, Qafqazda əsl vəziyyət , Ermənistan - Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin mahiyyəti, Azərbaycan haqqında bütün dünyada açıqlandı və beynəlxaq ictimai rəy Azərbaycanın xeyrinə dəyişdirildi.

-adəşkəs əldə edildi və münaqişənin nəticələrini aradan qaldırmaq üçün xüsusi diplomatik iş quruldu. Bunun nəticəsində bir tərəfdən, Azərbaycan öz siyasəti ilə bütün dünyada sülh sevər ölkə kimi tanıdildı . Avropanın və dünyanın ən boyuk nüfuzlu ölkələri ilə qarşılıqlı və iki tərəfli münasibətlər yaratmaq üçün ciddi iş aparıldı, digər tərəfdən Dağlıq Qarabağ problemi və Ermənistan – Azərbaycan münaqişəsi ümum avropa təhlükəsizliyi müstəvisinəçıxarıldı.

-ABŞ – və digər qərb ölkələrinin iqtisati və strateji maraqları, onları Azərbaycanla yaxından bağlamağın yolları öyrənildi və bu sahədə mühüm naliyyətlər əldə edildi. Azərbaycanın stratejineft siyasəti ABŞ – I və aparıcı Avropa dövlətlərini respublikamızla sıx bağladı, onların iqtisadi maraqlarını bizim milli dövləçilik mənafelərimizlə tam uzlaşdırdı.

- dünya siyasətində mühüm yer tutan ABŞ – la qarşılıqlı faydalı münasibətlər qurmaq sahəsində səylər artırıldı və bu istiqamətdə qarşıya qoyulan məqsədlərə əsasən nail olundu.

ABŞ – ın Ki – Uest şəhərindəki danışıqlar zamanı Prezident Heydər Əliyevin qətyyətli mövqeyi sayəsində ABŞ Dövlət Departamenti gec də olsa, Ermənistanı təcavüskar kimi ranıdı.

1995 – 1996 – cı illər də iki ölkə arasındasiyasi və iqtisadi əlaqələrin yüksələn xətlə inkişaf etdiyi dövr hesab oluna bilər.

1997 – ci ildə Prezident Heydər Əliyevin ABŞ – a rəsmi səfəri olur. Vaşinqtonda Amerika Azərbaycan münasibətləri haqqında birgə bəyanat verilir.

2002 – ci il martın 30 – da ABŞ Azərbaycana silah satışı üzrə qoyduğu qadağanı ləğv edir.

2003 – cü il fevralın 23 – də ABŞ Prezidenti Corc Buşun dəvəti ilə Azərbaycan respublikasının prezidenti Heydər Əliyev bu ölkəyə rəsmi səfər edir. Həmin səfər zamanı iki ölkə arasında iqtisadi əlaqələr, Cənubi Qafqazda reallaşan layihələrin vəziyyəti müzakirə edildi.

Aparılan uğurlu xarici siyasətin nəticəsində 2005 – ci il yanvarın sonunda ABŞ Dövlət Departamenti “ABŞ və Dağlıq Qarabağ” başlıqlı bəyanat verdi. Həmin bəyanatda göstərilirdiki, ABŞ Dağliq Qarabağı müstəqil qurum kimi qəbul etmirdünya ictimaiyyəti də, ABŞ da Qarabağ hakimiyyətini tanımır. ABŞ Azərbaycanın ərazi bütövlüyünü dəsdəkləyir.

Müsəqillik yolu tutmuş Azərbaycan Respublikası üçün dünyanın bütüb dövlətləri, o cümlədən Qərbi Avropanın ən nüfuzlu dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlıq və dostluq əlaqələri, qurmaq çox böyük siyasi və beynəlxalq əhəmiyyət kəsb edir. BuəLqələrin siyasi əhəmiyyəti onunla izah olunur ki, həmin dövlətlər Azərbaycanın üzv olduğu bütün benəlxalq və təşkilatlarda ləyaqətlə təmsil olunmasına, onun beynəlxaq təhlükəsizlik və iqtisadi əməkdaşlıq sisteminə,Avropanın müxtəlif sturuktur və institutlarına inteqrasiyasına hərtərəfli əməli yardım göstərmək imkanına malikdirlər.

Azərbaycanın Qərbi Avropa dövlətləri ilə qarşılıqlı faydalı əməkdaşlığı və dostluğu həm də çox mühüm iqtisadi amillərlə şərtlənir.

Azərbaycanin dövlət müstəqilliyi Böyük Britaniya tərəfindən 1991- ci ilin dekabrında , Fransa, Almaniya, İtaliya tərəfindən isə 1992 – ci ilin yanvarında tanınmış və həmin ilin əvvəllərində diplomatik münasibətlər yaradılmışdır. 1992 – ci ilin martında Fransa, sentyabrında Almaniya, 1993- cü ilin setyabr ayındaisə , Böyük Britaniya Azərbaycanda öz səfirliyini açmışdır. Azərbaycan isə əvvəl Almaniyada (1992) , daha sonra Böyük Britaniya və Fransada(1994) diplomatik nümayəndəliyini təsis etmişdir. İtaliyanın Azərbaycanda səfirliyi – 1997 – ci ildə, Azərbaycanın İtaliyada səfirliyi isə 2003 – cü ildə açılmışdır.

1994 – cüil sentyabrın 20 – də Qərb ölkələri şirkətlərinin təmsil olunduğu konsorsiumla Azərbaycan Dövlət Neft Şirkətinin neft hasilatına dair imzaladığı “Əsrin müqaviləsi” Avropa dövlətləri ilə Azərbaycan arasnnda əməkdaşlığı yeni səviyyəyə qaldırdı. Bu gün bu müqavilənin uğurla həyata keçirilməsi Azərbaycanın beynəlxaq möüqelərinin gücl ənməsinə ciddi təsir göstərmişdir.

Azərbaycan Prezidentinin 1997 ci ildə Fransa, İtaliya, Vatikan və Böyük Britaniyaya, 2001 – ci ildə yenidən Fransaya rəsmi səfərə gəlməsi və səfər zamanı aparılan danışıqlar, imzalanan sənədlər Azərbaycana Qərbdə artan marağın və onun yuksələn beynəlxaq nüfuzunun təzahürü kimi qiymətləndirilməlidir. Bu fikri təsdiq edən daha bir fakt isə Vtikan dövlətinin başçısı, Roma Papası II İohan Pavelin 2002 – ci ilin may ayında Azərbaycana rəsmi səfərə gəlməsi olmuçdur.

Bu siyasi kusu uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyaya . Fransaya, və Böyük Britaniyaya işgüzar səfərləri . Yunanıstan prezidenti K. Stefanopulosun Azərbaycana rəsmi səfəri, habelə bir sıra beynəlxaq toplantılarda Qərbi Avropa dövlətlərinin başçıları ilə keçirilən görüş və danışıqlar Azəbaycanın Qərb ölkələri ilə inteqrasiya proseslərinin güclənməsinə mühüm təsir göstərmişdir.

2005 – ci ilin fevralında Azərbaycan Prezidenti İlham Əliyevin İtaliya Respublikasına və Vatikan dövlətinə rəsmi səfəri Qərbi Avropa ölkələri ilə münasibətlərin inkişafına yönəlmiş siyasi xəttin davamı idi.

Müasir dövrdə də Azərbaycan Respublikası Qərbi Avropa dövlətləri ilə hərtərəfli əlaqələrin inkişaf etdirilməsi sahəsində məqsədyönlü xarici siyasət yeridir və öz milli maraqlarını qorumaq üçün ardıçıl addımlar atır.

SSRİ dağıldıqdan, Şərqi Avropanın sosialist ölkələri nəzarətdən çıxdıqdan və dünya dövlətlərinə 20-ci əsr boyu davam etmiş təsir mexanizmləri aradan qalxdıqdan sonra Rusiya öz xarici qarşısında üç əsas vəzifə qoymuşdu:

1. ABŞ, Avropa İttifaqı və NATO-nun Şərqə doğru hərəkətinin qarşısını almaq;
2. Keçmiş sovet məkanına Qərb dövlətlərinin müdaxiləsinə və yeni müstəqil dövlətlərin Qərbə meyillənməsinə mane olmaq;
3. Rusiya federasiyasının bütövlüyünü qorumaq, onun milli təhlükəsizliyini və dövlət maraqlarını bütun vasitələrlə təmin etmək.

Rusiya Cənubi Qafqaz istiqamətində uzun müddət etnik separatizm meyillərindən istifadə edərək region ölkələrini öz təsir dairəsində saxlamaq siyasətini yürütmüşdür.Bundan başqa, Kremil Cənubi Qafqaz ölkələrinin (xüsusən Azərbaycanın) kənt təsərrüfatı məhsullarının ənənəvi bazarinin məhz rusiya olmasını, bu olkələrin vətəndaşlarinin müəyyən hissəsinin işçi qüvvəsi kimi müvəqqəti rusiyada yaşamasını da bölgə ölkələrindəki siyasi həyata təsir göstərmək mexanizmi kimi istifadə etməyə calişır.

1991- ci ildə SSRİ dağıldıqdan sonra Rusiya Azərbaycanı müstəqil dövlət kimi tanımaöa məcbur oldusa da onun birdəfəlik itirilməsi , Qərb ölkələri və Türkiyə ilə inteqrasiyaya daxil olması ilə uzunn müddət barışa bilmədi. Azərbaycanın bərabərhüquqlu əsasda , qarşılıqlı faydalı əməkdaşlıq şəraitində beynəlxaq hüquqa və mehriban qonşuluq münasibətlərinə uyğun əlaqələr qurmaq istəyinə Rusiya uzun müddət müsbət reaksiya vermədi. Əslində, müstəqilliyinin ilk illərində Azərbaycan rəhbərliyi də Rusiya ilə sivil münasibətlər yaradılması sahəsində ciddi addımlar ata bilməmişdi. Odurki 1991 – 1993 – cü illərdə iki ölkə arasındakı münasibətlər qeyri normal idi. Hazırda rusiya Azərbaycanın müstəqilliyi və Qafqaz bölgəsinin nüfuzlu, perspektiv imkanları geniş olan dövlət statusu ilə barışmış və onunla qarşılıqlı münasibətlər yaratmaq əzmi nümayiş etdirir.

Azərbaycan Rusiya üçün bir neçə xarakteristikasına görə əhəmiyyətlidir:

Azərbaycan müsəlman şərqinə və Türkiyəyə çıxış üçün, Yaxın və Orta Şərqdə baş verən proseslərə təsir imkanlarına görə əhəmiyyətlidir.

Azərbaycan Şərq – Qərb nəqliyyat kommunikasiyaları və dəhlizlərinin mərkəzində yerləşir və bu baxımdan Rusiyanın rəqibidir.

Azərbaycanda çoxsaylı rusdilli əhali, Rusiyada isə azərbaycanlılar yaşayır ki, bu faktor da Rusiyanın maraqlarını əks etdirir.

Azərbaycan əraziləri Rusiyanın təhlükəsizliyi baxımından çox böyük əhəmiyyət kəsb edir.

Prezident Heydər Əliyevin Moskvaya ilk rəsmi dövlət səfəri və keçirdiyi çoxsaylı görüçlər Rusiyanın mövqeyində ciddidəyişiklərə səbəb oldu. 1997 – 2000 – ci illərdə tədricən iki ölkə arasındakı etimadsızlıq mühiti və”soyuq müharibə”

qarşılıqlı əlaqələrlə əvəz olundu. 2001 – ci ilin başlanğıcında

2001 – ci ilinbaşlanğıcında Rusiyanın yeni prezidenti V. Putinnin Azərbaycana rəsmi səfəri bu istiqamətdə mövcud olan problemlərin həllinə müsbət təsir gostərdi. 1997 – ci ilə qədər rəsmi dövlətlər arası münasibətlər çox kəskin və arzuolunmaz vəziyyətdə olmuşdur.

Hazırda iki ölkə arasında münasibətlər yüksələn xətt üzrə inkişaf edir. Prezident İlham Əliyevin Moskva səfərləri çərçivəsində iki ölkə əlaqələrinin bütün sahələri üzrə ortaq mövqelərənail olunub. X üsusən Xəzər dənizinin sektor bölgüsü, iqtisadi, mal- ticarət dövriyyəsinin yaxşılaşdırılması və s. sahələr üzrə dövlətlər arası və hökumətlər arası müqavilələr bağlanıb.

Azərbaycan 1992 – ci ildə öz müstəqiliyini bərpa edəndən sonra 1991 – ci il noyabrin – 9- da onu tanıyan ilk dövlət məhz Türkiyə oldu . 1992 – ci il yanvar ayının 14 – də Azərbaycan – Türkiyə diplomatik əlaqələri yaranmışdır. Həmin vaxtdan Türkiyənin Azərbaycanda , 1992 – ci ilin avqust ayından isə Azərbaycanın Türkiyədə diplomatik missiyası fəaliyyətə başlamışdır.

Türkiyə prezidenti Turqut Özalın Azərbaycana 1992 – ci il 1- 3 may tarixli səfəri zamanı imzalanmış Birgə Bəyanat strateji əməkdaşlıgın təməl daşını qoydu.

Türkiyə ilə hərtərəfli əməkdaşlığın genişlənməsinə xüsusi əhəmiyyət verən Heydər Əliyev 1993 – cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra bu isti qamət dəki kursun yüksələn xətt üzrə inkişafını təmin etdi.

Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Türkiyəyə 1994 – cü il fevralın 8 – dən 11 – dək davam edən ilk rəsmi səfəri ikitərəfli əlaqələrin inkişafına yeni təkan verdi.Ankarada aparılan danışıqlardan sonra fevralın 9 – da Azərbaycan Respublikası ilə Türkiyə Respublikası dostluq və hərtərəfli əməkdaşlığın inkişafı barədə müqavilə və digər mühüm sənədlər imzalanır.

1994 – cü il setyabrn 20 – də “Əsrin müqaviləsini” imzalamış xarici neft şirkətləri konsorsiumunda “Türk petrolları” şirkətinin təmsil olunması Türkiyə Azərbaycan arasında strateji əməkdaşlığın inkişafının real təzahürü idi.

1995 – ci il dekabrın 7 – 9 – da Türkiyə prezidenti Süleyman Dəmirəlin Azərbaycana rəsmi səfəri zamanı imzalanmış Birgə Bəyanat və iqtisadi əməkdaşlıq haqqında memorandum dostluq münasibətlərini müəyyənləşdirən prinsiplərin və əlaqələrin inkişaf istiqamətlərinin sarsılmaz olduğunu bir daha təsdiq etdi.
1996 – cı ildə iki ölkə arasında hərbi, texniki vəelm sahələrində əməkdaşlığa dair bir sıra sənədlər imzalandı.1999 – 2002 ci illərdəhərbi əməkdaşlıq sahəsində imzalanmıs bir sıra sənədlər iki ölkə arasında hərbi əlaqələrindaha dolğun əməli xarakter kəsb etməsinə, Azərbaycan ordusunun potensialının yüksəlməsinə təsir göstərmişdir.

Türkiyənin yeni seçilmiş prezidenti Əhməd Necdət Sezərin 2000- ci il iyulun 11- 12-də ilk xarici səfərə Azərbaycana gəlməsi və Bakıda imzalanmış Birgə Bəyanat qarşılıqlı strateji əməkdaşlığın dərinləşdirilməsinin hər iki ölkənin xarici siyasətində prioritet istiqamət olduğunu bir daha göstərdi. 2001 – ci ilin martında Azərbaycan Prezidenti Heydər Əliyevin Türkiyəyə rəsmi səfəri və səfər zamanı vergilər maliyyə, Azərbaycan təbii qazının Türkiyəyə nəql edilməsinə dair saziş və digər sənədlərin imzalanmasına dair qarşılıqlı faydalı əməkdaşlıq siyasətinin davam etdirilməsinə əlavə şəraitin yaradılması baxımından əhəmiyyət kəsb edir. Türkiyə - Azərbaycan əlaqələrinin inkişafında Prezident İlham Əliyevın 2004- cü il aprelin 13-15-də qardaı ölkəyə rəsmi səfəri mühüm rol oynadı.

Azərbaycan ilə Türkiyə münasibətlərinin dostluq və strateji əməkdaşlıq xarakteri kəsb etməsi nəinki hər iki dövlətin mənafelərini təmin edir eləcədə bütün regionda sabitliyin qorunması, sosial-iqtisadi tərəqqi və inteqrasiyaüçün əlverişli şəraitin yaradılmasına təsir göstərən mühüm amil rolunu oynayır.

Orta Asiyada Azərbaycanın ən yaxın müttəfiqi və strateji tərafdaşı rolunda Qazaxistan Respublikası çıxış edir.Xəzərin digər sahil yanı ölkələrindən fərqli olaraq,Qazaxıstanın Azərbaycanla münasibətləri yalnız yüksələn xətt üzrə inkişaf edib və müttəfiqlik səviyyəsinə qalxib.Hər iki ölkə həm Xəzərin hüquqi statusu həm də enerji daşıyıcılarının hasilatına,xarici kapilatın cəlb edilməsi və dünya bazarlarına çıxarılası məsələsində eyni və ya oxşar mövqedən çıxış edərək bir-birinin maraqlarını qaşılıqlı şəkildə təmin edir.

Azərbaycan – Qazaxstan münasibətləri yalnız Xəzərin statusu ətrafındakı məsləhətləşmələrlə yekunlaşmır. Son illər iki ölkə arasında iqtisadi əlaqələr görünməmiş intensivliklə inkişaf edir. Məsələn ,2000 – ci illə müqayisədə,2005 – ci ildə Azərbaycanla Qazaxstan arasında mal

dövriyyəsinin həcmi 5 dəfə artaraq 150 milyon dollara çatıb. Bakı – Tibilisi – Ceyhan əsas ixraç kəməri və TRASEKA lahiyəsi iki olkənin əməkdaşlıq etdiyi transmilli layihədir. Bakı ilə Astana Avropa ittifaqının dəstəyi ilə TRASEKA layihəsi çərçivəsində Asiya – Qafqaz – Avropa nəqliyyatn dəhlizi və Böyük İpək yolunun bərpası layihələrində də əməkdaşlıq edirlər.

Müstıqilliyin ilk illərində Özbəkistan- Azərbaycan münasibətləri ciddi böhran vəziyyəti keçirib. Yalnız 1993- cü ildən sonra Prezident Heydər Əliyevin Orta Asiya regionunun lideri adına iddialı olan Özbəkistanla münasibətləri bərpa etməsindən sonra iki ntərəfli siyasi, iqtisadi və mədəni əlaqələr inkişaf etməyə başlayıb. İki ölkə arasında münasibətlərin inkişafı isə 1996- cıilin mayında Özbəkistan Respublikasınınprezidenti İslam Kərimovun Azərbaycana rəsmi səfərindən sonra təsadüf edir. Bir il sonra – 1997- ci ilin iyununda isə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev Daşkənddə rəsmi səfərdə olur.

2004 –cü il martın 23-24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Özbəkistan Respublikasına dövlət səfəri etmişdir. Səfər zamanı Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında strateji əməkdaşlığın daha da möhkəmlədirilməsi haqqında Bəyannamə imzalanmışdır. Ölkələrin birgə iştirak etdiyi beynəlxaq layihələr, o cümlədən Traseka layihəsi çərçivəsində əməkdaşliqda münasibbətlərin inkişafına təkan verən amildir. Azərbaycan hökuməti Özbəkistanla münasibətləri prioritet hesab edir və Dakəndlə əlaqələrin möhkəmlənməsini Orta Asiyadakı mövqeləri baxımından vacıb sayır.

Pakistan ölkəmizin müstəqilliyini taniyan(12 dekabr 1991-ci il) onunla diplomatik əlaqələr yaradan və Azərbaycanda səfirliyini açan ilk müsəlman dövlətlərindən biridir.Pakistan ölkəmizin mənafeyinibütün beynəlxalq təşkilatlarda ardıcıl olaraq müdafiə etmiş,Ermənistanın təcavüzünə bir mənalı münasibət bildirmişdir.Azərbaycan prezidenti Heydər Əliyevin 1994-cü ilin dekabrında Kasablankada Pakistanın ovaxtki baş naziri Benazir,Bhutto ilə görüşündən sonra ikitərəfli münasibətlər daha yüksək səviyyəyə çatmışdır.1995-ci ilin oktyabrında Pakistan prezidenti Sərdar Faruk Əhməd xanLeqari rəsmi səfərlə Bakıda olmuşdur.1996-cı ilin aprelində isə Azərbaycan prezidenti H.Əliyev dost ölkəyə səfər etmişdir.Səfərlər zamanı iki ölkə arasında dostluq və əmkdaşlıq haqqında müqavilə imzalanmışdır.Pakistan Ermənistan Azərbaycan münaqişəsində Azərbaycanın haqq işini müdafiə edir.

Pakistan preziditenti Pərviz Müşərrəf 2004-cü il iyulun 8-dən 10-nadək Azərbaycana rəsmi səfər etmişdir.Azərbaycan və Pkistan hökümətləri arasında turizm və gömrük işi sahəsində əməkdaşlıq haqqında sazişlər habelə digər sənədlər imzalanmışdır.

Pakistan prezidentinin dəvətilə prezident İ.Əliyev 2005-ci il aprelin12-13 də bu ölkəyə rəsmi səfərə getmişdir.O,prezident Pəriz Müşərrəf və digər hökümət adamları ilə görüşlər keçirmiş hərbi ixraca yardım təşkilatının sərgisi ilə tanış olmuş,ölkənin ən böyük dini ocaqlarından sayılan Faysal məscidini ziyarət etmişdir.Pakistanı tam əminliklə Azərbaycanın Türkiyədən sonra dünyadakı ikinci əsas strateji müttəfiqi hesab etmək olar.

Azərbaycanın 2001 – ci il yanvarın 25- də Avropa Şurasına bərabərhüquqlu üzv qəbul olunması onun mühüm problemlərinin dünya ictimayətinin diqqətinə çıxarılması üçün ölkəmizə yenivə çox mötəbər bir tribuna qazandırdı.Avropa Şurası Parlament Assambleyasındakı (AŞPA) Azərbaycan nümayəndə heyyətinə millət vəkili İlham Əliyevin rəhbərlik etməsi ölkəmizin bu təşkilatdakı rolunu xeyli gücləndirmiş və qarşıya qoyulan bütün vəzifələrin reallaşdırılmasına şərait yaratmışdır.

2001-ci il aprelin24-27 –də Azərbaycan respublikasının AŞPA-dakı nümayəndə heyyəti ilk dəfə olaraq bu qurumun iclasında tam hüquqlu üzv kimi iştirak edərək plenar sessiyada dövlətçilik marağı baxımından,xüsusilə,Ermənistanın Azərbaycana təcavüzü faktlarını özündə əks etdirən bəzi əhəmiyyətli sənədləri yayılmışdır.Bunlardan 9 ölkə və AŞPA –da fəaliyyət göstərən,5 siyasi qrupu təmsil edən 29 mömayəndə tərəfindən imzalanmış”ermənilər tərəfindən azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımın tanınması” adlı yazılı bəyanat və 14 ölkəsini təmsil edən 20 nümayəndə tərəfindən imzalanmış “Ermənistan və Dağlıq Qarabağda saxlanılan hərbi əsirlər və girovlar” haqqında məlumat AŞPA-nın rəsmi sənədləri qismində yayılmışdır.Göstərilən sənədlərdə ermənilər tərəfindən Xocalı əhalisinin qətlə yetirilməsi Azərbaycan ərazisinin 20%-nin işğal edilməsi Ermənistanda eyni zamanda işğal edilmiş Azərbaycan ərazisində uşaq,qadın və yaşlı insanların da daxil olduğu 783 azərbaycanlı girovun saxlanması faktı və digər vacib məsələlər öz əksini tapmışdır.

2001- ci il iyunun 25-29-da AŞPA-nın növbəri plenar sessiyasın zamanı Azərbaycanla bağlı daha 2 mühümsənəd AŞPA-nin rəsmi sənədləri kimi yayilmışdir. "Azərbaycan Respublikasıda ( Dağlıq Qarabağ, Laçın, Qubadlı, Kəlbəcər,Ağdam,Fizuli, Cəbrayil, Zəngilan) ekoloji vəziyyət" adlanan birinci sənəddə Ermənistanın işğal olunmuş Azərbaycan ərazilərində ekoloji vəziyyəti düşünülmüş şəkildə korlaması, Azəbaycanın mədəni irsinin qəsb olunması və dağıdılması" adlı ikinci sənəddə isə işğal olunmuş Azərbaycan ərazilərində yerləşən mədəni abidə və sərvətlərin dağıdılması məsələsi Avropa ictimayyətinin ictimaiyyətinin diqqətinə çatdırılmışdır.

İlham Əliyev AŞPA –dakı Azərbaycan nümayəndə heyyətinin rəhbəri kimi ilk dəfə AŞPA kürsüsündən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlğq Qarabağ və daha 7 rayonun işğal olunduğunu,işğal edilmiş ərazilərin terrorizim və narkotik maddələrin tranzitinə çevrildiyini bəyan etmişdir. Azərbaycan Avropa Şurasını qaldırılan məsələlərə operativ və obyektiv münasibət bildirməyə çağırmışdır.